Xalq qəzeti.- 2020.- 30 yanvar.- S.8.

# Sosial islahatların dinamikası 2020-ci ildə də davam edəcək

***Ötən il sosial sahədə uğurlu islahatlar ili olmaqla, vətəndaşların rifahının daha da yaxşılaşdırılmasının, iqtisadi islahatlardan əldə olunmuş əlavə gəlirlərin sosial sahəyə yönəldilməsinin Prezident İlham Əliyevin siyasətində prioritet istiqamət olduğunu təsdiqlədi. Aparılan bu siyasət 2019-cu ildəki genişmiqyaslı islahatların və sosial inkişaf proseslərinin 2020-ci ildə də inamla davam etdirilməsinə təminat verir. Bunu Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev bildirib.***

O vurğulayıb ki, 2019-cu ilin yekunlarına dair keçirilən müşavirədə dövlətimizin başçısı keçən il əhaliyə çox geniş sosial paketin təqdim edildiyini qeyd edərək, “Mən keçən ilin əvvəlində bunu bəyan etmişdim. Demişdim ki, yığılacaq bütün əlavə vəsait sosial sahəyə yönəldiləcəkdir və bunu da etdik. Hər zaman olduğu kimi, sözümüzün üstündə dururuq. Sosial sahədə gedən müsbət proseslər və vətəndaşların rifah halının yaxşılaşdırılması bizim üçün prioritet məsələ olaraq qalır”, – bildirib.

Ötən ilin yekunları barədə məlumat verən S.Babayev sosial sahədə inqilabi addımların atılmasını, 4 milyon 200 min vətəndaşın rifahına birbaşa dəstəyi təmin edən iki islahat paketinin ötən ilin ən mühüm nailiyyətlərindən olduğunu deyib. Eləcə də sosial ödənişlərdə edilmiş ciddi artımların beynəlxalq səviyyədə də yüksək dəyərləndirildiyini qeyd edib. 2019-cu ildə orta aylıq pensiyanın, o cümlədən yaşa görə pensiyanın 15 faiz, əlilliyə görə pensiyanın 22 faiz artdığını, yanvar ayı ərzində indeksləşdirmə nəticəsində ölkədə pensiyalarda növbəti artımın ediləcəyini deyib.

Prezident İlham Əliyevin fərmanı ilə ötən il nazirliyin tabeliyində DOST (Dayanıqlı və Operativ Sosial Təminat) Agentliyinin və 1 və 2 saylı Bakı DOST mərkəzlərinin yaradılması sosial sahədə ən uğurlu inovativ yenilik olub və ölkəmizdə dövlət sosial xidmətlərinin keyfiyyətcə yeni inkişaf mərhələsinə keçilməsi təmin edilib. 1 saylı DOST mərkəzi 65 minədək vətəndaşa xidmət edib, “Könüllü DOST” proqramına 6900 müraciət edilib, 250 könüllü işə cəlb edilib. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü olan DOST konsepsiyası Azərbaycanın yeni brendi kimi tanınır. Təsadüfi deyil ki, 2 saylı DOST mərkəzinin açılışı zamanı Prezident İlham Əliyev bu xidmətin fəaliyyətinin başqa ölkələrdə maraq doğuracağına və təcrübə mübadiləsi üçün müraciətlər daxil olacağına əminliyini bildirib. Qeyd edilib ki, cari ildə Bakıda daha 2 DOST mərkəzinin, həmçinin Sumqayıt şəhərində, Abşeron, Şəki, Bərdə, Quba, Sabirabad rayonlarında yeni mərkəzlərin yaradılması üçün işlər aparılır.

Ötən il özünüməşğulluq proqramına cəlb olunanların sayı 10 min 354-ə, ünvanlı dövlət sosial yardımı alan ailələrin sayı 70 faiz artmaqla 72 minə (296 min ailə üzvü) çatıb. Dövlət başçısının tapşırığına uyğun olaraq, bu proqramların 2020-ci idə də genişləndirilməsi təmin olunacaq. Nazirliyin məşğulluq orqanları tərəfindən 103 028 şəxs münasib işlə təmin edilib, 3168 şəxs peşə hazırlığına, 135 minə yaxın vətəndaş peşəyönümü məsləhət xidmətlərinə cəlb edilib. Ötən il 38 min ödənişli ictimai iş yerinin açılmasına imkan verən “İşsizin DOSTu” proqramı, eləcə də bu proqramın icrası sahəsində şəffaflığın təminatına yönələn işlər bu il də davam edəcək.

Əmək müqavilələrinin sayında 2019-cu ildə 153 min artımın olduğunu qeyd edən S.Babayev bu dinamikanın 2020-ci ildə də davam etməsinin əsas hədəflərdən olduğunu deyib. Bildirilib ki, sosial sahədə geniş miqyas alan elektronlaşdırma proqramı çərçivəsində ötən il 2-si pensiya, 19-u müavinət-təqaüd növü olmaqla 21 sosial təminat növünün “e-təyinat” sistemi işə salınıb, bu əsasda cari ildə 200 minədək təyinatın elektron qaydada aparılacağı gözlənilir. 2019-cu ildə nazirliyin daha 13 “e-arayış” xidmətinin yaradıldığı və sayının 15-ə çatdırıldığı, 2020-ci ildə daha 15 “e-arayış” xidmətinin istifadəyə veriləcəyi diqqətə çatdırılıb.

Nazirlikdən bildiriblər ki, bərpa mərkəzlərində 10 457 nəfər əlilliyi olan şəxsə və sağlamlıq imkanları məhdud 18 yaşadək uşağa reabilitasiya xidmətləri göstərilib, əlilliyi olan şəxslərə 38041 reabilitasiya vasitəsi verilib. Ötən il əlilliyi olan şəxslər üçün bir sıra regional bərpa və sosial xidmət mərkəzləri əsaslı təmir və yenidənqurmadan sonra istifadəyə verilib. 2020-ci ildə də 10 reabilitasiya və sosial xidmət müəssisəsinin istifadəyə verilməsi planlaşdırılır.

Dövlət Sosial Müdafiə Fondunun gəlirləri artıb. Əsassız pensiya və əlillik təyinatlarının ləğvi, habelə geniş elektronlaşma proqramı nəticəsində büdcə vəsaitlərinə qənaət edilməsi, imtiyazlı şəxslərin mənzil və avtomobillə təminatı və digər sahələrdə müsbət nəticələr əldə edilib. Prezident İlham Əliyevin tapşırığına əsasən, bu il daha 1500 mənzilin və fərdi evin müharibə əlilləri və şəhid ailələrinə veriləcəyi nəzərdə tutulub. Dövlət başçısının fərmanı ilə nazirliyin tabeliyində publik hüquqi şəxslərin yaradılmasın məşğulluq, əmək, sosial müdafiə və təminat sahələrində əhaliyə xidmətlərin keyfiyyətinin yüksəldilməsi, sosial müdafiə sahəsində idarəetmənin təkmilləşdirilməsində müsbət nəticələr verib. Prezident İlham Əliyev tərəfindən 2019-cu ilin yekunlarına dair müşavirədə verilən tapşırıqların icrası ilə bağlı qarşıda duran vəzifələr, cari ildə sosial sahədə aparılacaq islahatlar, habelə dövlət başçısının fərmanı ilə nazirliyin tabeliyində publik hüquqi şəxslərin yaradılması üçün aparılan işlər, eyni zamanda, sosial islahatların bu il də geniş miqyasda davam edəcəyi bildirilib.



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nümayəndə heyətinin Dünya Bankının təşkilatçılığı ilə Avstriyanın Vyana şəhərində “Cənubi Qafqaz və Orta Asiya respublikalarında aktivasiya siyasətləri və təcrübə laboratoriyaları” mövzusunda keçirilən seminarda iştirakı zamanı, qeyd olunan ölkələrdə həyata keçirilən aktiv əmək bazarı siyasətləri ətrafında geniş müzakirələr barədə məlumat verən nazir həmin seminarda “Azərbaycanda aktivasiya proqramları” mövzusunda təqdimat edildiyini də qeyd edib.

Bildirib ki, təqdimatda son illərdə ölkəmizdə həyata keçirilən sosial islahatlardan, aktiv əmək bazarı proqramlarından, dövlət sosial xidmətlərinin innovativ əsasda keyfiyyətcə yeni inkişaf mərhələsinə keçməsini təmin edən DOST konsepsiyası və DOST mərkəzlərindən bəhs olunub. İştirakçılara, əmək, məşğulluq, sosial təminat sahələrində elektron texnologiyaların geniş tətbiqi istiqamətində əldə olunan nailiyyətlər, “E-sosial” portalı, “Məşğulluq” altsistemi, “e-pensiya” və “e-müavinət” sistemləri, e-arayış xidmətləri barədə geniş məlumat verilib.

***Zərifə BƏŞİRQIZI,***
***“Xalq qəzeti”***